## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*

UOT 373.2

***Laləzar Kazım qızı Cəfərova,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Respublikası Təhsil İnstitutunun Məktəbəqədər təhsilin inkişafı şöbəsinin müdiri, Əməkdar müəllim*

***Ülviyyə Nazim qızı Nəsibova***
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Bakı Humanitar Kollecinin müəllimi*

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN DÖVLƏT STANDARTLARI: UŞAQ BAĞÇASI MƏZUNLARINA VERİLƏN MÜASIR TƏLƏBLƏR

***Лалазар Казым гызы Джафарова,***
*доктор философии по педагогике, доцент заведующий отделом развития дошкольного образования Института Образования Азербайджанской Республики, Заслуженный учитель*

***Ульвия Назим гызы Насибова,***
*преподаватель Бакинского Гуманитарного Колледжа при Азербайджанском Государственном Университете Культуры и Искусств*

# ГОСУДАРСТВЕННЫЕ СТАНДАРТЫ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ: СОВРЕМЕННЫЕ ТРЕБОВАНИЯ К ВЫПУСКНИКАМ ДЕТСКИХ САДОВ

***Lalazar Kazım Jafarova,***
*doctor of philosophy in pedagogy, associate professor, head of the department of Preschool education development,at Institute of Education of the Republic of Azerbaijan, Honored teacher*

***Ulviya Nazim Nasibova,***
*teacher of Baku Humanitarian College at Azerbaijan State University of Culture and Arts*

# STATE STANDARDS FOR PRESCHOOL EDUCATION: MODERN REQUIREMENTS FOR KINDERGARTEN GRADUATES

**Xülasə.** Məqalədə məktəbəqədər yaşın sonunda qazanılmış bacarıqlar, əldə edilmiş nailiyyətlərin məktəb təliminə təsiri məsələləri, həmçinin məktəbəqədər təhsil ilə ibtidai təhsil arasındakı varisliyin təmin edilməsinin əhəmiyyəti araşdırılmışdır. Bu məqalə uşaqların məktəb təliminə hazırlanması baxımından əhəmniyyətlidir.
***Açar sözlər:*** *məktəbəqədər təhsil, məktəbəhazırlıq, uşaq bağçası, ibtidai təhsil, varislik*

***Резюме.*** В статье исследуются навыки, приобретенные в конце дошкольного возраста, влияние достижений на учебу в школе, а также важность обеспечения преемственности между дошкольным и начальным образованием. Эта статья важна с точки зрения подготовки детей к школе.
***Ключевые слова:*** *дошкольное образование, подготовка к школе, детский сад, начальное образование, преемственность*

**Summary.** The article examines the skills acquired at the end of preschool age, the impact of achievement on school performance, and the importance of ensuring continuity between preschool and primary education. This article is important in terms of preparing children for school.

***Key words:*** *preschool education, preparation for school, kindergarten, primary education, continuity*

*Məktəb təlimi heç vaxt boşluqdan başlanmır,*
*həmişə uşağın keçdiyi müəyyən inkişaf mərhələsinə əsaslanır.*
***L.S. Vıqotski***

İnsanın "uşaqlıq" adlanan inkişaf dövrü erkən yaş dövründən məktəb dövrünə qədər ən çətin keçid dövrü hesab edilir.

Təhsil səviyyələri arasında varislik həmişə təhsilin ən vacib problemlərindən biri olmuşdur. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri varislikdir. **Varislik** - ***təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsidir.*** Varislik inkişaf prosesində yeni və köhnə arasında obyektiv zəruri bir əlaqədir. Təhsilin davamlılığı prosesində bu əlaqəni təmin etmək, təhsilin hər bir mərhələsində sistemin bütün komponentlərinin (hədəfləri, məqsədləri, vəzifələri, məzmunu, metodları, vasitələri, təlim və tərbiyənin təşkili formasının) uyğunluğu və bu zəruri əlaqənin təmin edilməsi kimi başa düşülür.

Beləliklə, varislik yalnız yeniyə hazırlıq deyil, lazımi və məqsədəuyğun köhnənin qorunması və inkişafı, davamlı inkişafın təməli kimi yeni və köhnə arasında olan əlaqələrdir. Məktəbəqədər və ibtidai təhsil arasında olan fasiləsizlik aşağıdakı prioritet vəzifələrin həll olunmasını təklif edir.

***Məktəbəqədər mərhələdə:***

– uşaqları sağlam həyat tərzinin dəyərləri ilə tanış etmək;

– hər bir uşağın emosional rifahının təmin edilməsi, onun müsbət əhvalının inkişafı;

– təşəbbüskarlığın, iradiliyin, yaradıcı özünüifadənin inkişafı;

– ətraf aləm haqqında biliklərin formalaşması, müxtəlif fəaliyyətlərdə uşaqların kommunikativ, idrak, oyun fəallığının stimullaşdırılması;

– dünyaya, insanlara, özünə münasibətdə, uşaqların əməkdaşlığın müxtəlif formalarına cəlb edilməsi üzrə səriştəliliyin inkişaf etdirilməsi.

***İbtidai təhsil mərhələsində:***

– şagirdlərin vətəndaş kimliyi və dünyagörüşünün əsaslarının yaradılması;

– öyrənmə qabiliyyətinin və fəaliyyətlərini təşkil etmə qabiliyyətinin əsaslarının formalaşması;

– məqsədləri qəbul etmə, qoruyub saxlamaq və təhsil fəaliyyətində izləmək, fəaliyyətlərini planlaşdırma, nəzarət və qiymətləndirmək, təhsil prosesində müəllim və həmyaşıdları ilə qarşılıqlı əlaqə qurmaq;

– şagirdlərin mənəvi normaları, əxlaqi münasibətləri, milli dəyərləri qəbul etmələrini təmin edən mənəvi -əxlaqi inkişaf və tərbiyə;

– sağlam həyat tərzi dəyərlərinin şüurlu şəkildə qəbul edilməsi və davranışının onlara uyğun tənzimlənməsi, məktəbəqədər inkişafın nailiyyətlərinin yaxşılaşdırılması, məktəbəqədər uşaqlıqda formalaşmış keyfiyyətlərin inkişafı üçün xüsusi yardım;

– xüsusilə inkişaf etmiş inkişaf və ya geridə qalma hallarında təlim prosesinin fərdiləşdirilməsi.

Məktəbə hazırlığın məqsədi məktəbəqədər yaşlı uşaqlarda təlim fəaliyyətinin mənimsənilməsi üçün zəruri olan keyfiyyətlərin – tədqiqat, təşəbbüskarlıq, müstəqillik, iradilik, uşağın özünü yaradıcı ifadə etməsi və s. formalaşdırılması olmalıdır.

Müasir təhsildə ən aktual problemlərdən biri uşaqların məktəb təliminə hazırlanmasıdır. Məktəbə hazırlıq dövrü əsasən 5-6 yaşlı uşaqları əhatə edir. Uşağın məktəbə hazırlığı dedikdə, onun məktəb həyatına fiziki, əqli, sosial, psixoloji hazırlığı və məktəbdə təlimə başlamaq üçün müəyyən ilkin bacarıq və qabiliyyətlərin inkişafı nəzərdə tutulur. Konkret bilik və bacarıqlardan başqa, uşağa özünütənzimləmə, diqqətini cəmləşdirmə kimi keyfiyyətləri aşılamaq lazımdır. Beşyaşlıya təkcə onun istədiklərini vermək yox, həmçinin onun vəzifələrinə aid olanları da öyrətmək lazımdır.

Məktəbəhazırlıq mərhələsində uşaqların inkişafı, tərbiyəsi və təhsili prosesinin məqsədə-

uyğun təşkili məktəbəqədər təhsilin səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Bu isə həm də hər bir uşağın inkişafı üçün bərabər imkanların yaradılması zərurətini meydana çıxır. Beləliklə, keyfiyyətli təhsil baxımından bütün uşaqlar üçün eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanlarını nəzərə almaqla tənzimlənir. Millilik və dünyəvilik milli, ümumbəşəri dəyərlərin qorunması, onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsidir.

Məktəbəqədər təhsilin əsas prioritetləri: sağlamlığın qorunması və möhkəmləndirilməsi, bütün uşaqların inkişafı üçün əlverişli şəraitin təminatı, təlimin və tərbiyənin bazis məzmununun realizəsi zamanı öz fərdiliyinin saxlanılmasına və uşağın hüquqlarına hörmətin təmin edilməsidir.

Uşaqların məktəb təliminə fiziki, psixoloji, sosial-emosional, koqnitiv (idrak), estetik və yaradıcı inkişafı, savad təliminə hazırlıq və nitq inkişafı, məntiqi və riyazi təfəkkürün inkişafı, ətraf aləmlə tanışlıq, ekoloji mədəniyyətin formalaşdırılması cəhətdən hazır olmalarını nəzərdə tutur. Məqsədə çatmaq üçün aşağıdakı məsələlərə əməl olunmalıdır:

– məktəbəqədər və ibtidai təhsil proqramları arasında varisliyin təmin olunması;

– müxtəlif təbəqədən olan ailələrin uşaqlarına məktəbəqədər təhsil alma imkanlarının yaradılması;

– uşaqların fiziki, psixoloji, sosial, emosional-iradi, idraki, nitq və estetik inkişafına yönələn optimal inkişafetdirici mühitin yaradılması;

– uşaqların maraq və tələbatlarının ödənilməsi;

– uşaqların məktəb şəraitinə daha rahat uyğunlaşmaları üçün psixoloji mühitin yaradılması;

– uşaqyönlülük və şəxsiyyətyönlülük prinsiplərinə əməl olunması;

– məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafı üçün valideynlərin maarifləndirilməsi;

– uşaqların diqqətini milli-mənəvi və ümumbəşəri dəyərlərə cəlb etmək üçün şəraitin yaradılması.

Uşaqların təhsilin birinci mərhələsinin proqramını mənimsəmələri üçün onların ümumi (psixoloji) hazırlığını təmin edən davamlılığın təməlləri, məktəbəqədər təhsil mərhələsində təhsil prosesinin əsas şərtlərindəndir və eyni zamanda ibtidai təhsilin başlanğıc nöqtələridir.

*Bu gün hamını maraqlandıran bir sual var: müasir mərhələdə məktəbəqədər təhsil müəssisəsi və ibtidai məktəbdə Dövlət Təhsil Standartının qəbulu ilə əlaqədar "Uşağın məktəbə hazırlığı"anlayışının mahiyyəti dəyişirmi, məktəbəqədər təhsil və ümumtəhsilin indiki dövrü arasındakı varislik probleminin spesifikliyi nədir?*

İbtidai təhsilin dövlət standartları və məktəbəqədər təhsilin dövlət standartlarının qəbul edilməsi ilə təhsil sisteminin iki mərhələsinin varisliyini təmin etmək üçün başlanğıc qoyuldu.

Məktəbəqədər təhsilin dövlət standartları Azərbaycan təhsili tarixində dövlət səviyyəsində mühüm prinsipləri müəyyənləşdirən ilk sənəddir, ona görə də məktəbəqədər yaşlı uşaqların təliminin xüsusiyyətləri nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrində təlim işini faktiki olaraq yenidən qurmaq zəruridir.

**MTDS** məktəbəqədər təhsilin məzmununun standartlaşdırılmasına kömək edir. Bu da hər bir məktəbəqədər təhsil müəssisəsinin təhsil proqramının necə olmasını, hər uşağın yaşına uyğun inkişaf səviyyəsini təmin etmək üçün hansı məzmunu həyata keçirməli olduğunu aydınlaşdırır.

MTDS məktəbəqədər təhsil müəssisəsində bir uşaq bağçası məzunu, orada işləyən tərbiyəçi-müəllimlər və ibtidai sinif müəllimləri üçün tələblərin vahidliyini müəyyənləşdirir.

İlk dəfə məktəbəqədər təhsil - ibtidai məktəb sistemində varislik üçün real normativ zəmin yaradıldı. Uşaqlarla təhsil işinin qurulmasının vahid ümumi nəzəri əsasları və prinsipləri, təhsilin məqsədlərinin ardıcıllığı və varisliyi, təhsil proqramına yiyələnməyin nəticələri kimi inteqrativ keyfiyyətlərin realizasiyası problemin həlli təcrübəsində həyata keçirilməyə başlamaq üçün əsasdır.

Məktəbəqədər və ibtidai təhsilin dövlət standartları təhsil sahələrinin təhlili məzmunlu varisliyini müəyyən etdi. Bunu belə ifadə etmək olar:

*– yalnız fəaliyyət sayəsində insan yeni bir təcrübəyə yiyələnir, müstəqil olaraq öyrənə bilər və bu da artıq sahib olduğu fəaliyyətlər əsasında ən uğurlu bir şəkildə baş verir.*

*– Real həyatda münasibət və hadisələri modelləşdirmək oyunda baş verir. Uşaq bağçasında fəaliyyətin aparıcı növü oyundur və bunun nəticəsi kimi ibtidai məktəbdə tədris fəaliyyətinə tədricən keçid və rahat olur.*

Varisliyin əsasları aşağıdakılardır:

1. Gələcək şagirdin idraki fəallığının əsası kimi məktəbəqədər yaşlı uşaqlarda maraqların inkişafı; idraki fəallıq təlim fəaliyyətinin təkcə zəruri komponenti deyil, həm də onun təlimə, öyrənməyə olan marağını, iradi davranışın və uşaq şəxsiyyətinin digər vacib xüsusiyyətlərinin inkişafını təmin edir.

2. Uşağın bacarıqlarının inkişafı yaradıcı (zehni, bədii) və digər vəzifələrin müstəqil həlli yolları kimi, müxtəlif fəaliyyət növlərində, o cümlədən təhsildə uğurlu olmağa imkan verən vasitə kimi inkişaf etdirməkdir. Bacarıqların formalaşması – uşağı məkanın modelləşdirilməsi, planların, sxemlərin, işarələrin, simvolların, obyektlərin – əvəzedicilərin istifadəsidir.

3. Yaradıcı təxəyyülün formalaşdırılması uşağın şəxsiyyətyönlü intellektual inkişafının istiqaməti kimi. Bu, süjetli-rollu oyunlardan, quraşdırma, bədii fəaliyyətin müxtəlif növləri, elementar tədqiqatçılıqdan istifadə ilə təmin edilir.

4. Kommunikativ inkişaf - böyüklər və həmyaşıdları ilə ünsiyyət bacarıqları təlim fəaliyyətinin zəruri şərtlərindən biridir. Bu, şəxsiyyətyönlü fərdi inkişafının mühüm istiqamətidir. Ünsiyyətin inkişafı uşaqların və böyüklərin birgə fəaliyyəti üçün şərait yaratmaqla təmin olunur; böyüklər və uşaqlar arasında qarşılıqlı təsir nümunəsi kimi qarşılıqlı əlaqə yolları; uşaqlara ünsiyyət qurma, əməkdaşlıq etmə, münaqişələrin həlli, bir-biri ilə qarşılıqlı əlaqə qurma imkanlarını öyrədir.

Uşaq bağçası məzunu və ibtidai məktəb məzununun portretləri bir çox cəhətdən bir-birinə bənzəyir, lakin ibtidai məktəbdə öyrənmə nəticələri uşaq bağçasında formalaşmış səriştələrin keyfiyyətcə yeni inkişaf səviyyəsini (daha doğrusu, səriştələrin inkişafının ilkin şərtlərini) nəzərdə tutur.

MTDS və ibtidai məktəbin məzmun standartlarında təhsil proqramlarına yiyələnməyin nəticələrinə dair tələblər əsasən əlaqələndirilir. Uşaq bağçasında inkişaf sahələrinə yiyələnmək, uşağın ibtidai siniflərdə fənlər üzrə müvəffəq olmasını təmin edir.

Bundan əlavə, məktəbəqədər təhsilin kurikulumu uşaqların və valideynlərin tələbatları əsasında təhsil prosesinin bütün iştirakçıları tərəfindən formalaşdırılır.

Eyni imkan ibtidai məktəblər üçün standart tərəfindən təsdiq edilmişdir. Varisliyin digər bir göstəricisi -bütün uşaqların təhsili üçün bərabər imkanların təmin edilməsidir. Standartlar uşaq bağçası məzunu modelində qoyulan şəxsi və inkişaf sahələri üzrə təlim nəticələrinə dair tələbləri də müəyyənləşdirir.

Daha əvvəl də qeyd edildiyi kimi, uşaq bağçası məzununun portreti, ibtidai məktəb məzununun portreti ilə üst-üstə düşür. Uşaq bağçası və məktəb müəllimləri uşaqlarda eyni şəxsiyyət xüsusiyyətlərini formalaşdırırlar.

İbtidai məktəbin yeni təhsil standartlarına keçməsi ilə əlaqədar universal təlim fəaliyyətlərinin formalaşması məsələsi xüsusi əhəmiyyət kəsb edir.

Məktəbəqədər təhsil Standartı əsasında təşkil edilən təlim zamanı uşaq təlim fəaliyyətinin bütün komponentlərini mənimsəyir. Universal təlim fəaliyyətlərinin formalaşması bütöv bir təhsil prosesi çərçivəsində həyata keçirilir və məqsəd, nəticə və eyni zamanda uşaqların xüsusi təşkil olunmuş təhsil fəaliyyətləri vasitəsi kimi çıxış edir, uşağa birgə fəaliyyətdən (tərbiyəçi-müəllimin rəhbərliyi altında) müstəqil fəaliyyət fəaliyyətə keçidi təmin edir.

İbtidai sinifdə bütün fənlərin öyrənilməsi nəticəsində məzunlarda öyrənmə qabiliyyətinin əsası olaraq bütün universal təhsil fəaliyyətləri formalaşdırılmalıdırlar. Bütün bunlar ibtidai ümumi təhsilə aiddir.

**Bəs məktəbəqədər təhsil səviyyəsində işlər necə gedir?** Məktəbəqədər yaşda universal təhsil hərəkəti yoxdur, bu dövrdə yalnız onun üçün zəmin formalaşdırılır.

Məktəbəqədər yaşlı uşaqlarda, universal təhsil fəaliyyətlərinin fərdi komponenti, ilk növbədə, uşağın məktəb təhsilinə şəxsi hazırlığı – şagirdin daxili mövqeyinin formalaşma dərəcəsi ilə müəyyən edilir.

Uşağın məktəbə getməsinə gəldikdə, tənzimləyici universal təhsil tədbirləri üçün aşağıdakı şərtlər ayırd edilə bilər:

– hər hansı modelə və ya müəyyən qaydaya uyğun hərəkət həyata keçirmək bacarığı;

– verilmiş məqsədi qorumaq bacarığı;

– səhvləri tapmaq və onları düzəltmək bacarığı;

– nəticələrə əsasən öz fəaliyyətlərinə nəzarət etmək bacarığı;

– böyüklərin və yaşıdının qiymətləndirməsini adekvat başa düşmək bacarığı.

Məlumdur ki, məktəbə gedən uşaqda ünsiyyətin inkişafı müəyyən səviyyəyə çatır. Uşağın məktəbdə təlimə başlaması üçün zəruri şərtlər aşağıdakı komponentləri əhatə edir:

– uşağın böyüklər və yaşıdları ilə ünsiyyətə tələbatı;

– nitq bacarıqlarına, müəyyən şifahi və qeyri-şifahi (verbal, qeyri-verbal) ünsiyyət vasitələrinə yiyələnmək;

– əməkdaşlıq prosesinə arzu olunan emosional pozitiv münasibət;

– tərəfdaşına ünsiyyət üçün yönəlmə,

– həmsöhbətini dinləmək bacarığı.

Məktəbəqədər təhsilin Dövlət Standartında hər yaş dövrü və məktəbəqədər təhsil dövrünün sonu üçün təlim nəticələri təqdim edilir. Bu təlim nəticələri məktəbəqədər təhsil səviyyəsinin başa çatması mərhələsində uşağın mümkün nailiyyətlərinin yaş xüsusiyyətlərini əks etdirən məktəbəqədər təhsil üçün hədəflər şəklində təqdim olunur. Bu cür xüsusiyyətlər təhsilin növbəti səviyyəsinə keçid, məktəbdəki həyat şərtlərinə və təhsil prosesinin tələblərinə uğurlu uyğunlaşma üçün zəruri şərtlərdir.

Beləliklə, Məktəbəqədər Təhsilin Dövlət Standartına uyğun olaraq uşaq bağçası məzunu üçün tələbləri və ümumtəhsilin dövlət Standartına uyğun olaraq ibtidai sinif şagirdlərinin nəticələrinə dair tələbləri ümumiləşdirmək və müqayisə etmək, varisliyin konturları ortaya çıxır.

Keyfiyyətli məktəbəqədər və ibtidai təhsilin təmin edilməsi üçün müasir müəllimlər Dövlət Təhsil Standartının həyata keçirilməsinə bacarıqla yanaşmalıdırlar. Eyni zamanda, standartların tətbiqinin mürəkkəb, kompleks və çoxşaxəli bir proses olduğunu anlamaq lazımdır. Vahid inkişafı xətti kimi varislik problemi məktəbəqədər təhsil müəssisələri və ibtidai sinif müəllimləri tərəfindən birlikdə həll edilən zaman daha səmərəli nəticə əldə edilir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası.http://www.-president.az/articles/9779 24 oktyabr -2013.

2. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. -Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, -2002.

3. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 16 iyun 2017. http://www.-president.az/articles/24248

4. Məktəbəqədər təhsilin dövlət standartı. 08 avqust 2019-cu. il. http://www.edu.gov.az/

**E-mail**: l.cafarova@mail.ru
**E-mail:** ulviyye.nasib@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **L.A. Məmmədli,**
*ped.ü.fəls.dok.* **R.R. Məmmədzxadə**

**Redaksiyaya daxil olub:**10.06.2021